# Qəşəm Nəcəfzadə - 60



### YENƏ SƏN HAQQINDA ELƏ-BELƏ...

Telefonda "Alo" səsini eşitmək,
Sənə yalvarmaqdı indi.
Səsinə cavab verməmək,
Səni çağırmaqdı indi.

Tək "Alo" səsindən bilirəm,
Məndən inciməyin necədir?
Soyuducun acdımı,
Yeyib-içməyin necədir?

Sizin küçənizə çıxmaq,
Yalandan
Kirayə ev soruşmaq
Səndən ötrü darıxmaqdı indi.

Sən girən dükana girmək,
Qonşunuz Tükəz arvada
Çaşıb salam vermək
Zülüm-zülüm ağlamaqdı indi.

Sizin küçəniz nə daşlıdı,
Qoy yıxılım, dərs olsun.
Qoy dizlərim ağrısın,
Qoy ürəyim soyusun.

Nə qədər adam öldü
Nə qədər qız ərə getdi, ay aman!
Yerinə bir qızı sevmək
Nə qədər çətinmiş, ay aman!

### SƏNİN AĞIRLIĞIN YOXDU BU ŞƏHƏRDƏ

Hər şey səndən sonra oldu
Hər şey...
Həmin ünvanda deyiləm
İşdən çıxmışam artıq.

Əvvəl atam öldü,
Sonra da anam,
Nə deyim,
Mən də yır-yığışdayam.

Deyirlər sizin binanı sökürlər
Ayaq üstə durub dayanacaqlar.
Şəhərə təzə avtobuslar gəlib
Başqa çürdü oturacaqlar.
Sənin ağırlığın yoxdu
Bu şəhərdə -
Şəhər uçur eyy... Gəl.
Bəlkə yellənçəkdəsən?

Bəlkə başıma ələnən yağış
Ayaqqabına dolan sudu,
Bəlkə, ayaqların başıma
Düşür.
Daha doğrusu, addımlarının
Səsi.

Səndən sonra maşın aldım
Səni piyada getdiyimiz yolda
Qoyub gəldim.
İndi küçələrdə parça-parçasan.
Adam ol, xatirə olma
Mən səni maşına götürə bilim.

Ayaqlarım tez-tez
əyləci basır,
bütün günü maşında
ayaqlarım rəqs eləyir.

Deyirlər çox kökəlmişəm
Bax gör səni
Necə unutmuşam.

### AY BAĞÇAYA SÜD DAŞIYAN SÜRÜCÜ

Ay bağçaya süd daşıyan sürücü,
Əlinə bax, əllərində gül açıb.
Bu bağçaya sən gələndən, gedəndən
Barmaqların körpə kimi dil açıb.

A bəxtəvər, kaş yerinə mən olam,
Bu bağçanın qapısını açam mən.
Birdən-birə böyüyələr uşaqlar,
Uşaq kimi qabağına qaçam mən.

Hərdən sənə ş"axta baba" deyirlər,
Bu uşaqlar görən nəyə aldanıb?
Elə bil ki, daşıdığın o süddən,
Külək vurub, saqqalına calanıb.

Uşaq kimi yüyürürsən, qaçırsan,
Yazanda da hərfləri yeyirsən.
Yerə düşsə uşaqların kökəsi,
Ondan qabaq özün yerə dəyirsən.
Nahar vaxtı söykənirsən divara,
Dincəlirsən, cingildəyir qaşıqlar.
Uşaqlığın hər düşəndə yadına,
Ağlayırsan, kiridənmir uşaqlar.

### SİRRİMİN ÜSTÜNDƏ BU CANIM QAPI

Sirrimin üstündə bu canım qapı,
Məni görmək üçün göy, oynar?
- Oynar.
Gələrəm evimə ürəyimdə sirr,
Sirri bilmək üçün öy, oynar?
- Oynar.

Nədi məni belə yandıran yaxan,
Çöl üçün bir belə içdə darıxan.
Yüz yerdən dartınan, yüz yerdən sıxan
Canımda damarım göy, oynar?
- Oynar.

Xəttin düz olarsa yolda azarsan,
Şeir yox, özünə qəbir qazarsan.
İstəsən bir gözəl şeir yazasan,
Qələmin burnunu əy, oynar?
- Oynar.

Samit ağız bağlar, sait dil açar,
Anlayar halımı könlü alçaqlar.
Sevincim ağlayar, qəmim əl çalar,
Dərdim ortalıqda bəy, oynar?
- Oynar.

Tünlükdü aranı tutub neçə baş,
Ay kimi tutulub alnındakı qaş.
Bir azca başını yana əy yavaş,
Gözünün birini qıy, oynar?
- Oynar.

Burda nə danışım burda nə dinim?
Segah havasıdı bu halım, dəmim.
Gündüzlər qulağım kar olar mənim,
Gecələr başımda küy, oynar?
- Oynar.

### ATA

Oğlanlarım, mən sizin yerinizə olsaydım atamı
çox sevərdim,
Adına şeir yazardım hətta.
Alnı nədi, heç qoymazdım şəkilləri qırışlana.

Yadıma salardım
O, mənim beşiyimin kəndirini tavana
necə mismarlamışdı,
Mən də onun baxışlarını könlümə elə yazardım.

Sizə iki şeir yazdım, oğlanlarım.
Birini uşaqlığınıza,
Bunu da böyüklüyünüzə...
Birini qucağıma alanda
Birini qucağımdan düşürəndə...

Mən dəqiq bilirəm,
Bütün ataları övladları öldürür.
Bunu bilirsinizmi, siznənəm, eyy...
Hə, siznən...
Onnan... Sənnən...

Bütün ayrılıqlar qəflətən və özü də səbəbsiz olur.
Ağlınıza gəlirmi ki, bir gün atanızın ayaqqabılarını
Qapıda görməyəcəksiniz?
Ən birinci qapıdan ayaqqabılar yığışdırılır.

Adamı yaman yandırır ayaqqabı yeri...

Dəfn mərasimi qədər həyatda qəddar heç nə yoxdur...
Sizin yerinizə olsaydım bunu həmişə
yadımda saxlardım.

Yuxudan tez durardım ki, atamı çox görüm
Başdaşı üçün şəkillərinə baxmazdım,
Öləndən sonra şeirlərini oxumazdım.
Mən sizin yerinizə olsaydım atam haqqında
xatirə danışmazdım...

### ŞEİRİMƏ BAX, ŞƏKLİMİ ƏZBƏRLƏ...

Getdim uzaqlardan səni çağırmağa
Yaxında olanda səsim ancaq bir santimetr uça bilir,
Eşitmirsən...

Görən uzaqlarda necə görünür şəklin,
Necə səslənir adın?

Getdim uzaqlardan səni çağırmağa
Görüm aramızda ,
Neçə hecadır kilometrlər.
Necə qafiyələnir buludlar, yollar...
Ağaclar və küləklər
Getdim uzaqlardan səni çağırmağa
Tökülsün səsimdən soyuqdəymələr,
İncimələr
küsüşmələr
Getdim uzaqları sənə sevdirməyə.

Eşitdiyimə görə, çoxdandı şəklimi oxumursan.
İndi şeirimə bax,
Şəklimi əzbərlə.

Hələ yaxından gələn görməmişəm,
Gələn uzaqdan gəlir
Getdim uzaqdan gəlməyə.

Yadındadı,
Ürəyinə keşikçi dayanmışdın.
Sən bu tərəfdən gözləyəndə,
Mən o tərəfdən gəldim!

### DƏYİRMAN

İstəyirəm gedib kənddə dəyirman tikəm,
Söyüd saçlı arxların üstündə tikəm.
Örkəni doğanaqdan uzaqda tikəm,
Suların içindəki dəli sevdanı oxusun
Dəyirmanın çarxı.
Sonra götürüb dəli sevdanı qatsın
Üyütdüyü buğdaya.

İstəyirəm gedəm kənddə bir taxıl əkəm,
Sünbüllər boylu olur zəmini ayaqyalın sulayanda.
Sünbüllər yelinləyir
Ayaqlarım balıqlarla burun - buruna dəyəndə.

İstəyirəm eşşək arabası ilə taxıl daşıyım
dəyirmana,
Un tayları sığal çəksin kürəyimin ağrısına.

Arıq bir dəyirmançı olum
Arılar sevən
Dul arvadlar,
Qarılar sevən
Gecə səhərəcən buğdanın içindəki sevdalara
əyilən.

Sonra, sonra
Üzümü bulayıb una,
Sevgilisinə unun ətrindən bir nəfəs tutan.

Göynən gedən uca quşlar,
Bulud kimi düşsünlər dəyirmanın başına
Uzaqdan keçən atlılar
Əlini qoyub qaşına, soruşsunlar:
Ay bala, o uzaqda xal kimi qaralan nədi?
Dəyirmandı, bir şair tikibmiş - desinlər.
Şair sevdası
Eşq xarabası kimi qalıb dünyanın huşunda.

Qapısında qədim bir yazı varmış
Bu köhnə dəyirmanın:
"Can bəslədim,
Eşqim bir də cana gələ.
Neçə şeir yazdım,
Sevgilim yola gəlmədi,
Bəlkə, dəyirmana gələ".

### BİZİMKİ AYRILIQDAN KEÇDİ

Nağıl öyrənirəm ki, sənə danışım,
Lətifə əzbərləyirəm, səni güldürüm,
Ayrılıq öyrənirəm, səni öldürüm,
Bizimki ayrılıqdan keçdi, qorxma.

Ayaqqabılarımı küçənin ortasında soyunuram ki,
güləsən.
Dişləri sınmış darağımı göstərirəm ki, qəh-qəh
çəkəsən.
Sənə uşaq ayaqqıbılarını göstərirəm, sevəsən,
Gəlinlik paltarına baxıb gülümsəyirəm,
kədərlənəsən.
Süd kimi gəlin olasan.

Bu nədi,
Anan səni Ayda çimizdirib, nədi?

Araq içirəm ki, sevinəsən,
Siqaret çəkirəm ki, güləsən.
Görürsən ki, böyümüşəm,
Görürsən ki, qocalmışam.
Bir gün də çəliyimlə güldürəcəm səni,
Çəliyimdə bir ağ çiçək var,

Yemək yeyəndə əllərimi yağa batırıram ki, anam
olasan,
Çayı süfrəyə calayıram ki, məni danlayasan,
Küçəni tərs keçirəm ki, qolumdan tutasan.

Hələ çox güldürəcəm səni.
Belim əyiləndə,
Gəl düzəlt məni.
Gör qarnımı qucaqlayıb hansı lətifəyə gülürəm?